2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 01 yanvar 2015-ci il tarixli 89 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 03 yanvar 2015-ci il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 76 saylı Lənkəran-Astara seçki dairəsinin Səpnəkəran bələdiyyəsinə qeydə alınmış namizədlər Hüseynov Bəhmən Əbdül oğlu və Mustafayev Nurəddin Paşa oğlunun 01 yanvar 2015-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətini araşdıraraq aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırmaya qəbul edilmişdir.

Qeydə alınmış namizədlər B.Ə.Hüseynov və N.P.Mustafayev dairənin 11 və 12 saylı seçki məntəqələri üzrə dairə seçki komissiyası tərəfindən səslərin yenidən hesablanması zamanı pozuntulara yol verildiyini iddia edərək dairə seçki komissiyasının hərəkətindən şikayət edərək ekspertlər və yoxlama komissiyası göndərilməsini xahiş etmişlər.

Müraciət etmiş şəxsə araşdırma aparılması barədə məlumat verilmiş, ona araşdırmada iştirak etmək hüququ izah edilmişdir.

Aparılmış araşdırma ilə müəyyən edilmişdir ki, qeydə alınmış namizəd Hüseynov Bəhmən Əbdül oğlunun Mərkəzi Seçki Komissiyasına müraciəti əsasında komissiya tərəfindən 76 saylı Lənkəran-Astara seçki dairəsinin 11 və 12 saylı seçki məntəqələri üzrə səslərin yenidən hesablanması barədə qərar qəbul edilərək dairə seçki komissiyasına göndərilmişdir. Dairə seçki komissiyası tərəfindən Mərkəzi Seçki Komissiyasına təqdim olunmuş 28 dekabr 2014-cü il tarixli, 24/63 saylı qərardan müəyyən edilir ki, həmin tarixdə dairə seçki komissiyası Səpnəkəran bələdiyyəsinə qeydə alınmış namizədlər Hüseynov Bəhmən Əbdül oğlu, Mustafayev Nurəddin Paşa oğlu, Babayev Şaddıq Əli oğlunun və müşahidəçilər Məmmədov Şöhrət Xudaverdi oğlu, Əhmədov Surət Əsəd oğlu və Suvarov İlqar Cəsarət oğlunun iştirakı ilə 11 və 12 saylı seçki məntəqələri üzrə səslərin yenidən hesablanmasını aparmışdır. Səslərin yenidən hesablanması ilə müəyyən edilən nəticələr həmin məntəqələr üzrə 23 dekabr 2014-cü il tarixdə keçirilmiş səsvermənin nəticələrinə dair tərtib

edilmiş protokollardakı məlumatlarla eynilik təşkil etmişdir. Səslərin yenidən hesablanması ilə bağlı tərtib edilmiş protokolların və qəbul edilmiş qərarın surətləri maraqlı şəxslərə təqdim edilmişdir.

Araşdırma prosesində səslərin yenidən hesablanmasında iştirak etmiş müşahidəçilər, Məmmədov Şöhrət Xudaverdi oğlu, Əhmədov Surət Əsəd oğlu və Suvarov İlqar Cəsarət oğlundan alınmış izahatlarda göstərilir ki, 11 və 12 saylı seçki məntəqələrində səslərin yenidən hesablanması prosesində hər hansı qanun pozuntusuna yol verildiyini müşahidə etməmişlər, səslərin yenidən hesablanması ilə müəyyən edilən nəticələr əvvəlki nəticələrlə üst-üstə düşmüşdür.

Araşdırma nəticəsində həmin seçki dairəsi üzrə 11 və 12 saylı seçki məntəqələrində səslərin yenidən hesablanması prosesində dairə seçki komissiyasının hərəkətlərində qanun pozuntusuna yol verilməsi müəyyən olunmamışdır. Müraciətdə göstərilənlər öz təsdiqini tapmadığından, müraciət əsassız hesab edilərək təmin edilməməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 76 saylı Lənkəran-Astara seçki dairəsinin Səpnəkəran bələdiyyəsinə qeydə alınmış namizədlər Hüseynov Bəhmən Əbdül oğlu və Mustafayev Nurəddin Paşa oğlunun Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 01 yanvar 2015-ci il tarixli, 89 saylı müraciətləri əsassız olduğundan təmin edilməsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov